# Turq teatrosy Olimpiadada.

Turq bədaje' teatrosynyn Umym Ittifak Teatro Olimpiadasьnda iştiraq etməqdən məksədi 10 il içərisində teatro sahəsində əldə edilən muvəffəkijjətləri və təcrubələri oldykca qeniş bir syrətdə qostərməq, başka teatroların fəalijjətinə dikkət jetirməq, onların qordujy işlərlə ətraflь surətdə tanьş olarak bənimsəməq, noksanları mejdana çıkarmak, aradan kaldьrmak, muvəffəkijjətlərdən isə istifadə ilə qələcəq jol tə'jin etməqdən ibarət idi. Olimpijadanьn istər Syralar Ittifakь, istərsə də bejnəlxalk bojuq sijasi əhəmijjəti hakkьnda danьşmak belə artьkdьr. Teatronyn ilq çьkьşь Leningradda oldy. Şərk xalkları evində «Krasnaja Gazeta» muxbirləri kylybynda, incə sən'ət işçiləri evində Alman Işçi Teatrosy və Leningrad teatroları ilə duzələn rabitə qecələri, teatronyn Pytilov zavodyna qetməsi və sairə bojuq sijasi bir numaiş halьnь aldь. On bojuq kardaşlьk həmrəjliji numaişi turq-tatar teatrosynyn. Tatar, Ɵzbəj. Turq teatrolarьnьn kьrьd Tatarьstan mərqəzində qoruşməsi oldy.

Turq bədaje' teatrosynyn istər Leningrad istərsə də Kazandaqь bojuq muvəffəkijjətləri istər Leningrad istərsə də Kazan mətbyatь və xusysən teatro mətbyatь tərəfindən çok ajdьn qostərildi.

Turq teatrosy qorqəmli ixtisasə maliq aktjor jaradarak mundərəcə e'tibarilə hazьrqi tələblərə yjqyn inkьlabi turq dramatyrgijasь jetişdirmiş qi, by dramatyrgijanьn ajrь -ajrь bojuq səhv və noksanları olsa belə hər halda milli dramatyrgijalar sьrasьnda birinci jerlərdən tuta bilər. By fiqir butun tamaşaçь, mətbyat və sairənin juri olarak olimpijadadaqь zurinin mulahəzəsində belə ajdьn qorundu. Olimpijada nəticələri pəq qorqəmli və ejni halda qozlənilməjən oldy.

Hər tamaşa hakkьnda qeniş mubahisə açьlьr, teatronyn butun fəalijjəti, bədii, ideolozi əhəmijjəti, mədəni imkanları muzaqərə olynyr, muvəffəkijjət və noksanları mejdana çьkarьlьrdь.

Kommynist Akademijasьnda **Cəbarlьnьn** mə'ryzəsi uzrə Turq Bədaje' Teatrosy fəalijjəti hakkьnda mubahisələr aparьldь.

Byndan sonra Devləti Bədii Elmlər Akademijasьnda A. **A. Tyganof** mə'ryzədə bylyndy. Istər by mubahisələr istərsə də zuri iclaslarьnda muvəffəkijjətlərlə bərabər noksanlar daxi qostərildi.

Əsas muvəffəkijjət:

1. Ixtisaslь aktjor kollektivi və

2. Muasir inkьlabi milli dramatygija oldygy hesab edildi.

Əsas noksan olarak 3 məsələ irəli suruldu və mubahisələrin də çok hissəsi by xusysda oldy.

1. Kadro məsələsində qostərildi qi, tamaşaja xidmət edənlər, mysikiçilər, rəssamlar və sairə kadrosy lazьmi surətlə hazьrlanmamьşdьr.

2. Bədii jaradьcьlьk usyllarь məsələsi hakkьnda qostərildi qi, teatro tarixini qeçirmiş Moskva Bədaje' Teatrosy jaradьcьlьk usyly uzrə qedir. Teatro hələliq natyralizm tor-toqunusundan təmamilə azad olmamьşdьr. Istər tərtibat istərsə də kyrylyşlarьn sьnьfь mahijjəti təmamilə ajdьn dejildir.

Teatroda proletar xətt hərəqəti galibijjətini tə'min etməq uçun istər nəzəri istərsə də əməli fəalijjətdə ciddi mubarizə lazьm qələcəqdir.

3. Milli forma hakkьnda. Əqər Rystaveli adьna teatronyn milli formasь hakkьnda bə'z əjintilərə jol verilərəq milli formanьn incə sən'əti qutlələrə jakьnlaşdьrmak və Qurcustan əməqçiləri jaradьcьlьgьnь mejdana çьkarmak uçun bir vasitə dejil, bir məksəd qibi istifadə olyndygy və bynyn nəticəsində milli forma və jaxyd daha dogrysy milli incə sən'ətin millətçiliq incə sən'əti təmajulu qostərdiji kejd edildi və Ɵzbəq təatrosynda ibtidai etnografijadan ibarət oldygy qostərildisə, Azərbajcan Turq Bədaje' Teatrosynda milli forma məsələsinə lazьmi kədər fiqir verilmədiji kejd olyndy. By isə incə sən'əti Azərbajcanьn əsas işçi qəndli qutlələrindən bir kədər ajrь salmьş olyr.

Əlbətdə internasijonal Syra mədənijjəti inqişafı uçun milli formalь milli mədənijjətin inqişafi çok əhəmijjətlidir. Mədənijjəti proletar məzmynda fəkət tanьş milli formada verməq məsələsi ən birinci nevbədə həll olynmalьdyr. Fəkət byradan bir neçə məsələ mejdana çьkьr: Milli forma necə muəjjən edilməli, haradan alьnmalьdur? Milli forma öjlə hazьrlanmьş və muəjjən bir şej dejildir qi, ony arzy etdiqdə qoturub papak qibi başa kojmak olsyn.

Milli forma papak, don, çərqəzi paltar, xəncər və jaxyd (irəli) qəmiləqlərdən ibarət olarak kala bilməz. Ony aktarmak və tapmak lazьmdьr. Fəkət by iş bir məksəd dejil, bir vasitə olmalьdьr. Milli formanь haradan aktarmak olar? Onyn əlamətləri istər paltarlar, istər, jeriş, istər umymi ahənq, istər hərəqətlərlər danьşmak kajdasь, bojalar, nəgьllar, və həjatьn butun sahələrində qorunərəq sьnfь xətt-hərəqətcə təbəkələşmişdir. Byrada jenə butun iş kadro məsələsindən ibarət olyr, zira xalkьnьn jaşajьşьn butun incəliqləri ilə tanьş və dejalektik usyl ilə silahlanmьş bir rəssam by agьr vəzifəji jerinə jetirə bilər. Fəkət by məsələ hakkьnda Stalin joldaşьn rəhbərliq edici qostərişlərini duşunməjən bə'z joldaşlar by məsələji bojlə bir tərzdə kojmadьlar. Milli forma Stalin joldaşьn qostərdiji əsaslar uzrə inqişaf etdirilməlidir və by iş teatronyn ən muhum vəzifələrindəndir.

Təşkilat və texniki tədbirlərdəqi noksanlar muvəffəkijjətlərimizi təmamilə qostərməjə jol vermədi və nəticələrə daxi az tə'sir bagьşlamьş oldy.

Teatro Olimpijadaja qedirqən lazьmi kədər hazьrlьk işi aparmamьşdьr. Əlbətdə Olimpijadanь bir jarьş hesab etməq dogry olmaz. Hər Olimpijada əsas e'tibarilə muvəffəkijjətlər joklanьşьdьr. Byrada xusysi olarak hazьrlanan tamaşaları verməq, butun 10 illiq fəalijjəti qostərməq lazьm idi. Fəkət bynlarьn hamьsь heç olmasa sьnьk sonuq dekorlarьn tə'mirinə mane' ola bilməzdi.

Başka teatrolar Olimpijadaja nə inqi butun he'ətləri hətta iləvə kuvvələrlə qəlmişlərdi. Qurculər, Ɵzbəqlər və sairə ozləri ilə bojuq jardьm hej'əti, mysiki ansambli, okyjanlar, milli xor və sairə qətirmişdilər. Ɵzbəqlərin dram və opera teatroları iştirak edirdi. Turq Bədaje' Teatrosy isə nə inqi ozu ilə jardьm hej'ti aparmamьş hətta aktjorlarьnьn belə bir hissəsini sijahь xaricində byrakmьşdь.

